# Fatehlik və Qələbə ruhu, Ağdamda kövrək anlar

**Bu dəfə şəhid qanı ilə yazılan Qələbənin tamını Ağdamda hiss etdik, duyduq, varlığımızdan keçirdik. Bundan əvvəl Laçında, Xocalıda, Füzulidə, Şuşada və 14 kənddə o dadı, o tamı, o ətri ruhən hiss etdik, şərəfli anlar yaşadıq. Mayın 10-da Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın Ağdama növbəti səfərini izlədik, qürurlu və duyğulu anlar yaşadıq.**

**Azərbaycanın yaralanmış xəritəsini bütövləşdirən, təcavüzkarları torpaqlarımızdan qovan, dörd il yarım bundan əvvəl dəmir iradəsi, qətiyyəti, Vətən və xalq məhəbbəti, liderlik xarakteri ilə 30 illik işğala son qoyan, haqqı, ədaləti bərpa edən, milli qürurumuzu, şərəfimizi ucaldan Qalib Ali Baş Komandan İlham Əliyev bəzi ermənipərəst qlobal güclərin Qarabağda cidd-cəhdlə saxlamaq istədikləri status-kvonu dəyişməyə nail oldu.**

**(davamı 5-ci səhifədə)**

# Fatehlik və Qələbə ruhu, Ağdamda kövrək anlar




(əvvəli 1-ci səhifədə)

Tarix sübut etdi ki, İlham Əliyev dediklərini edən liderdir! Ermənistanın hərbi rəhbərlərinin və qondarma separatçı rejimin münaqişə dövründə ölkəmizə qarşı törətdiyi çoxsaylı müharibə cinayətlərinə, kütləvi qırğın və soyqırımı aktlarına, terrorçuluğa, vandalizmə Azərbaycan özü son qoydu. Cəsarətlə, inadkarlıqla, fədakarlıqla, qəhrəmanlıqla, şərəflə, siyasi və hərbi güc ilə Azərbaycan Cənubi Qafqazda mövcud reallığı dəyişdi. Prezident, Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər silahlı qüvvələrimizin bölmələri tərəfindən icra edilmiş "Qisas", "Dəmir Yumruq" əməliyyatları Azərbaycan xalqının hərb tarixinə qızıl hərflərlə yazıldı, işğalçılığı, nasizmi dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələndi. Qalib Ali Baş Komandan tərəfindən üçrəngli bayrağımız Sərsəngdə, Ağdərədə, Əsgəranda, Xocavənddə, Xankəndidə göylərə qaldırıldı, nə xoş ki, indi bu bayrağı bütün dünya seyr edir. Azərbaycanın uzun illər apardığı mübarizə işğal olunmuş torpaqlarımızın azadlığı ilə yanaşı, həm də bütövlükdə erməni faşizminə qarşı savaşı başa çatdırdı. Cəmi 20 ildə iki əsr boyunca heç kəsin bacara bilmədiyini reallaşdıran Qarabağ Fatehi, dünyaşöhrətli siyasətçi bu millətə elə bir qələbə bəxş etdi ki, yazmaqla tükənən deyil.







Mayın 10-da Ağdamda keçirilən görüşdə Qalib Ali Baş Komandanın "yaşasın Ağdam" sözləri 30 il ərzində ağdamlıların yaşadıqları ağrılara, şəhid ruhları dolaşan yurd yerlərinə, düşməni diz üstə çökdürən qəhrəman oğulların hünərinə ən böyük qiymət və ən güclü təsəlli oldu. Prezidentin ağdamlılarla, qazilərlə, sənət adamları ilə görüşlərindən çəkilmiş kadrları qürurla izlədik. Hər kəs sevincini bölüşməyə məqam axtarırdı, Qalib Sərkərdəyə ürəyindəki xoş sözləri çatdırmaq istəyirdi. Ağdamın işğaldan azad edilməsi onlara sonsuz sevinc bəxş edib. Kimi dindirsən, kiminlə həmsöhbət olursan, hamı ürəkdən gələn bir söz deyir: Müzəffər ordumuza, Qalib Ali Baş Komandan İlham Əliyevə minnətdarıq!

Çox gözəl və modern üslubda inşa edilmiş Ağdam Muğam Mərkəzində muğam ustalarının çıxışları üç nəslin ifasında qələbə fəlsəfəsinin zəngulələrdə inikası idi. Konsertdə duyğulu anlar yaşandı, Prezident 9 yaşlı Əhədin oxuduğu "Qarabağ şikəstə"sini dinləyəndə kövrəldi, ifanı ayaq üstə alqışladı, səhnəyə qalxıb balaca ifaçını bağrına basdı. Prezidentin "Əziz dostlar, əziz ağdamlılar, bu gün ölkəmizin tarixində çox gözəl bir gündür. Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu gözəl tədbirin mayın 10-da keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır" sözləri ata vəsiyyətini şərəflə yerinə yetirən övladın ürək çırpıntıları, qəlb duyğuları idi. Ağdamda, məşhur məsəldə deyildiyi kimi, bir uşağı küsdürəndə muğam üstündə ağlayır. Ağdam həm də Qarabağın toy otağıydı, öz ənənəsi, öz dəst-xətti olan muğam ustaları Azərbaycanın mədəniyyətinə, incəsənətinə, muğam dünyasına sanballı töhfələr veriblər. Düz dörd il yarım bundan əvvəl, gözəl bir yaz günündə Prezidentimizin rəhbərliyi ilə Ağdamda bərpa və yenidənqurmaya başlanılıb, işlər sürətlə və keyfiyyətlə aparılır, xarabalıqlar içərisindən yeni bir Ağdam boylanır və dünyada hər kəs dağıdıcı Ermənistandan fərqli olaraq Azərbaycanın nə qədər qurucu dövlət olduğunu görür. "Elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır". Ruhumuzu, duyğularımızı, arzularımızı təzələyən bu sözləri Azərbaycan xalqına misilsiz qələbə bəxş edən Qalib Ali Baş Komandan İlham Əliyev 2021-ci il mayın 28-də Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib. Yenidən tikilən hər bir yol, məktəb, iş yeri, mədəniyyət və dini abidə davamlı, dinc və firavan bir gələcəyə doğru atılan zəfər addımıdır. O, ilahi andan, tarixi qələbədən sonra ağdamlılar keçən hər günü şükranlıqla, minnətdarlıqla, sevgiylə qaşılayırlar.

Ağdamda Prezident İlham Əliyev bir daha bəyan etdi ki, bu, bizim hamımızın qələbəsidir. Azərbaycan xalqı bu Qələbəni əldə etməklə öz tarixi böyüklüyünü bütün dünyaya nümayiş etdirdi. Həm də xalqı, ordunu şanlı qələbəyə, torpaqlarını azad etməyə səfərbər edən, siyasət meydanında qətiyyətlə savaşan, prinsipiallığını yeridən Sərkərdə varlığı da var! Bu qələbə onun adına yazılıb və yüz illər keçsə də, bu həqiqət Azərbaycan tarixində əbədi yaşayacaq. Dövlətimizin başçısı Ağdamdan qətiyyətli mövqeyi və prinsipiallığı ilə xəbərdarlıq etməyi də unutmadı: "Təsadüfi deyil ki, Azərbaycana dünyada olan münasibət, - hətta bizə düşmənçilik edən dairələr, qüvvələr, ölkələr bilirlər ki, biz ləyaqətli xalqıq, hörmətə layiq olan xalqıq və bizimlə hesablaşmaq lazımdır. Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur". Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam sürətlə bərpa edilir, ermənilər tərəfindən uzun illər boyu xarabalığa çevrilən torpaqlarda evlər ucalır, binalar tikilir, mədəni-maarif müəssisələri istifadəyə verilir. Ağdam ümidin, inamın, arzuların şəhərinə çevrilir. Ağdam müasir şəhərsalmanın ən son modeli əsasında yenidən dirçəlir, düşmənin vurduğu ağır yaralar aradan qaldırılır, bu qədim yurd yeri yenidən qurulur. Dövlət başçısının tapşırığına uyğun olaraq, birləşdirilən kəndlərlə və əhalinin artımı nəzərə alınaraq şəhər 100 min nəfər əhali üçün tikilir. Çox nəhəng bir layihə gözlərimiz qaşısında reallaşdırır, bu möhtəşəm işlərə necə sakit baxmaq olar?! Prezident yaratdığı qələbə formulu haqda zərgər dəqiqliyi ilə dedi: "Siyasi iradə, iqtisadi güc, müstəqil siyasət, güclü Ordu, vətənpərvərlik və gənc nəsil - milli ruhda tərbiyə olunan, bu torpaqları heç vaxt görməyən gənc nəsil. Bu torpaqları heç vaxt görməyənlərin, müharibədə iştirak edənlərin əksəriyyəti işğal dövründə doğulmuş insanlar idi. Onları doğma torpağa çəkən o tarixi bağlar - bütün bu və digər amillər bizim Qələbəmizi şərtləndirdi və biz mütləq və tam Qələbə qazandıq". Bəli, tam və mütləq qələbə indi Ağdamdan baxanda daha möhtəşəm və qətiyyətlə görünür. Ötən onilliklər ərzində və son dövrlərdə dünyada heç kim tam və mütləq qələbə qazana bilməyib, bu uğuru xalqının taleyinə yazan Sərkərdənin Ağdamda kövrəlməsi elə bu qələbədən doğan sevincin təcəssümü idi.

Prezidentimiz xalq-ordu-sərkərdə birliyi haqqında danışdı. Bu gün üçün nə qədər uzun, çətin, məşəqqətli yol qət olundu, biz bir düşmənlə döyüşmədik, onun arxasında gizlənmiş güclərlə savaşdıq, qan tökdük, şəhidlər verdik. "Xalq arxamda durmasaydı, əgər müharibə dövründə hər hansı bir tərəddüd hiss olunsaydı, yaxud da ki, cəmiyyətdə hər hansı bir fikir ayrılığı olsaydı, bu Qələbəni belə şəraitdə, belə ağır vəziyyətdə qazanmaq mümkün olmazdı. Şəhidlər dəfn olunurdu, şəhidlərin anaları, ataları, yaxınları deyirdilər ki, dayanma. Bilirsiniz, bu nədir?!". Bəli, bu üç kəlmə sözdəki məna qatları çox dərin, çox qiymətlidir, Böyük qələbənin düsturudur. Ağdamda daha iki əlamətdar hadisənin şahidi olduq. Prezident Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü günündə Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak etdi. Yaşlı ağdamlıların, o cümlədən mənim də yadıma köhnə xatirələr düşdü, sevinc göz yaşları bizi köhnə Ağdama çəkib apardı. Bakıdan Ağdama qatar gedəcək, özü də nəinki Ağdama, həm də Xankəndiyə. Sözün düzü, bu əsl möcüzədir, yatsaq heç yuxumuza da girməzdi ki, biz bu xoşbəxtliyi yaşayacağıq. İndi bu yuxu deyil, çox böyük bir həqiqətdir! Bərdə-Ağdam dəmir yolu xətti ilə ilk rəmzi sərnişin qatarı 32 il sonra İlham Əliyevin xeyir-duası ilə yola salındı, axı buna ürəkdən sevinməyəsən, gözlərin dolmaya, bu mümkünmü? Prezident rayonun Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edərkən "Kəngərliyə xoş gəlmisiniz" söylədi. Bu Fatehlik ruhunun, qalibiyyətin, qətiyyətin, fədakarlığın, Liderlik missiyasının təcəssümü idi.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 15 may(№99).- S.1;5.